**Društvo prijateljstva Slovenije in Azerbajdžana**

## Əziz Sloveniya səyahətçisi və ziyarətçisi!

Biz, Sloveniya-Azərbaycan dostluq cəmiyyətinin üzvləri, sizləri salamlayırıq. Bizim balaca amma əsrarəngiz ölkəmizi ziyarət etmək istəyiniz bizləri çox sevindirir. Beləliklə, siz böyük məsafə qət eləməlisiz. Biz sizi ürəkdən salamlayırıq. Avtomobillə bizim paytaxt Lyüblyanadan Nova –Qoriça şəhərinə gedərkən sizin önünüzdə gözəl Vipave vadisi açılır. Bura Aralıq dənizi bitkiləri ilə, üzüm, meyvələr, zeytun, əncir və əla növ çaxırı ilə tanınır. Şəhər tipli qəsəbələrdə külək kimi təmiz hava, kirəmit damları və pərdəli pəncərələri olan evlərdir. Nova-Qoriça yaxınlığındakı vadidə bütün dünyadan pilotlar uçuşa gəlir, çünki bura unikal relyef şəraiti (Trnovo yaylası) və küləkli əlverişli iqlim şəraiti ilə fərqlənir. Əziz ziyarətçi, bizim balaca ölkənin gözəlliklərindən həzz almağa dəvət edirik!








Baxmayaraq ki bizim ölkələr bir-birindən uzaqdadırlar, onların bir ortaq əlaqəsi vardır. Bu əlaqə İkinci dünya mühasribəsi illərində yaranmışdır. O zaman sloven partizanlarının sıralarında müxtəlif millətlərdən döyüşçülər var idi. Döyüşçülərin böyük bir hissəsi keçmiş Sovet Respublikasından idi. Almanlar Sovet ordusunun əsir düşmüş əsgərlərini İtaliyaya, Friuliyə yollamışdılar ki, onlardan partizan hərəkatının qarşısının alınması üçün istifadə etsinlər. Oradan qaçanlardan 800 nəfərə yaxın bir qrup belə demək olarsa “rus batalyonu” adı altında IX Korpusu yaratmışdılar və bu insanlar öz şücaətləri ilə seçilirdilər. Alman işğalçılarına qarşı döyüşlərdə, əsasən də 1945-ci ilin aprel və may aylarında Triest uğrunda gedən döyüşlərdə 160 döyüşçü həlak oldu. Onlar ağır döyüşlər gedən müxtəlif yerlərdə dəfn olunublar. “Rus batalyonunda” həlak olmuş 135 döyüşçünün adının həkk olunduğu Trnovo xatirə daşı Qoriça şəhərinin mərkəzindən çox uzaq deyil.

Trnovo abidəsində **Mehdi Hüseynzadənin** partizan adı olan **Mixaylo** da həkk olunmuşdur. O, Almanlarla Stalinqrad uğrunda döyüşlərdə yaralanmış və əsir düşmüşdü.Almanlar onu partizanlara qarşı istifadə etmək istədikləri əsir düşmüş sovet əsgərlərinin məskunlaşdığı hərbi hissəyə göndərmişdilər. İtaliyanın Friuli şəhərində 1943-cü ilin payızında Sloven partizanları ilə əlaqə yaratdıqdan sonra 1944-cü ilin fevral ayında 150 nəfərlik bir qrup qaçış təşkil etmişdir. IX Korpusda o, Qradnikova briqadasında fəaliyyət göstərir.

O, çox cəsur və igid bir döyüşçü idi. Ən uğurlu və məşhur olan partizan əməliyyatları aşağıdakılardır: 2 Aprel 1944-cü ildə Triest yaxınlığında Opçina kinozalında partlayış, 23 Aprel 1944-cü ildə Triestdə Zabitlər evinin partladıması, həmçinin Triestdə 6 kazarmanın, iki elektrik stansiyasının və "İl Pikkolo" faşist jurnalının baş idarəsinin partladılması. Minaatanlar dəstəsinə rəhbərlik etmiş və İtaliya ilə






Almaniya arasında nəqliyyat əlaqələrini mümkünsüz etmişdirvə beləcə alman qüvvələrinin cəbhədə yerləşməsinin qarşısını almışdır. IX korpusun İngilis-amerikan missiyası tez-tez onun xidmətlərini qeyd edir. Sloevn xalqı içində qəhrəmana böyük hörmət və ehtiram vardır. 2 Noyabr 1944-cü ildə Vitovledə, IX korpusun başçısı kimi Trnova meşəsində əməliyyat zamanı həlak olmuşdur. Meşədə gecə vaxtı istirahət etdikləri zaman almanlar tərəfindən mühasirəyə alınmış və təəssüf ki, bu mühasirədən çıxa bilməyərək qətlə yetirilmişdir.

Yerli sakinlər onu Vitovlyada qəbiristanlıqda dəfn etmişdilər, amma Mixaylonun "Rus batalyonundan" olan dostları 19 Noyabrda onun nəşini çıxararaq Çepovana gətirmişlər və burada hərbi qaydalara uyğun olaraq dəfn etmişlər. Bu gün o, özündən savayı əslən o yerlərdən olan daha 31 döyüşçü ilə bu torpaqlarda yatır.

Qəbirdaşında isə yazılıb: " Yat əziz Mehdi, Azərbaycan xalqının qəhrəmanı, azadlıq uğrunda sənin qəhrəmanlığın hər zaman dostlarının ürəklərində qalacaq!"




*Mixaylonun məzarı Çepovanuda*



*Şempasuda xatirə abidəsi*

Məktublarından birində Mixaylo bacısına yazırdı: "Əgər bu xalq uğrunda ölmək vacibdirsə, o zaman mən qəhrəman kimi öləcəm!".

Sovet Respublikasının rəhbərliyi Stalinin ölümündən sonra, 11 Aprel 1957-ci ildə Mixayloya Sovet Respublikası Qəhrəmanı adı verildi. Vitovle şəhərininn yerli xalqı və Nova-Qoriça şəhəri Döyüşçüləri İttifaqı 3 İyul 1983-cü ildə onun həlak olduğu yerdə abidə ucaltmışlar. 2007-ci ildə Şempasuda Mixaylonun şərəfinə heykəltaraş Akif Əsgərovun əl işi olan abidə qoyulmuşdur. 2011-ci ildə Muzey açılmışdır.






**Sloveniyaya xoş gəlmişsiniz!**